# Milli musiqimizin “Üzeyir Günü”

**Üzeyir Hacibəyli istisna qabiliyyəti, görünməmiş fədakarlığı, gözəl təhsili, erudisiyası, vətənpərvərliyi, fəal ictimai-siyasi fəaliyyəti sayəsində xalqımızın ehtiram bəslədiyi ən görkəmli yaradıcı simalardan birinə çevrilib. O, dünya korifeylərinin ön sırasında Azərbaycanı ləyaqətlə təmsil edir.**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev

**Elə şəxsiyyətlər var ki, onların əməlləri və xidmətləri təkcə bir xalqın və millətin adına yazıla bilməz. Belə şəxslər mənsub olduqları xalqın adını, mədəniyyətini təmsil etsələr də, həm də bütövlükdə bəşər mədəniyyətinin qiymətli xəzinəsi hesab edilirlər. Azərbaycanın dahi musiqiçisi, bəstəkarı Üzeyir bəy Hacıbəyli tarixin yetişdirdiyi belə azsaylı şəxslərdən biridir.**

Ü.Hacıbəyli bəşəriyyətin yetişdirdiyi o nadir dahilərindəndir ki, mənsub olduğu xalqın bütövlükdə musiqi mədəniyyətini demək olar ki, təkbaşına çiyinlərində daşıma iqtidarındadır. Bugünkü Azərbaycan müsiqisinin inkişafı heç şübhəsiz və mübaliğəsiz böyük Üzeyirin adı ilə bağlıdır. O, tarixin həm də elə nadir şəxsiyyətlərindəndir ki, adının əvvəlində xeyli sayda “ilk” kəlməsi işlədilir. Azərbaycan peşəkar musiqisinin ilk nümayəndəsi, Şərqdə ilk operanın banisi, ilk musiqili komediyanın, ilk musiqili operettanın yaradıcısı, Azərbaycan muğamlarını ilk dəfə nota köçürən musiqiçi, ilk romansın müəllifi və XX əsrdə yetişən böyük Azərbaycan musiqi xadimlərinin ilk Böyük Ustadı və sair...

Artıq neçə illərdir sentyabrın 18-i Azərbaycanda milli musiqi bayramı kimi qeyd edilir. Əslində, musiqi ictimaiyyəti arasında bu günün bayram kimi qeyd olunmasının maraqlı və uzun tarixi var. Ü. Hacıbəylinin vəfatından sonra hər il böyük dirijor, maestro Niyazi onun doğum gününü bir qrup musiqiçi ilə musiqi bayramı kimi qeyd edirmiş. Lakin dahi bəstəkarın ad gününün əsl musiqi bayramına çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi bəstəkarın bütövlükdə Azərbaycan mədəniyyətinə verdiyi töhfələri yüksək qiymətləndirən Ümummilli Lider 1995-ci ildə, bəstəkarın 110 illik yubileyi ərəfəsində xüsusi Sərəncamla 18 sentyabrın “Üzeyir Musiqi Günü” kimi qeyd edilməsini qərarlaşdırır. Qəribədir ki, sonralar hər il musiqi bayramı kimi qeyd edilən bu gün Azərbaycan ictimaiyyətində və mediada “Milli Musiqi Günü” kimi adlandırılır. Bu, bir qədər üzeyirşünasların narazılığına səbəb olsa da, əslində, xalqın böyük musiqiçinin xidmətlərinə verdiyi dəyərin ifadəsi kimi qəbul edilməlidir. Çünki “Üzeyir musiqisi” elə həm də “Milli Musiqi” deməkdir.

## Haşiyə

Ü.Hacıbəylinin ev muzeyinin sabiq direktoru, musiqişünas Səadət Qarabağlı bəzi yerlərdə 18 sentyabrın “Milli Musiqi Günü” kimi təqdim olunmasına etirazını bildirir. Onun sözlərinə görə, ulu öndər Heydər Əliyevin dahi Üzeyir bəy Hacıbəylinin 110 illik yubileyi münasibətilə 1995-ci il 17 sentyabr tarixində imzaladığı Sərəncama əsasən, 18 sentyabr Azərbaycanda “Üzeyir Musiqi Günü” kimi qeyd olunur: “Amma bəzi təşkilatlar, televiziyalar, mətbuat orqanları bu günü “Milli Musiqi Günü” adlandırırlar. Milli musiqi gününü hər gün qeyd etmək olar. Milli musiqini hər gün dinləmək mümkündür. Amma 18 sentyabr Üzeyir bəyin doğum günü ilə bağlı olduğundan “Üzeyir Musiqi Günü” adlanır. Həmin gün də əsasən Üzeyir bəyin əsərləri ifa olunmalıdır. Bununla bağlı xüsusi sərəncam verilib.”

## HƏYATI

Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli 18 sentyabr 1885-ci ildə Ağcabədidə doğulub. Ailənin dördüncü uşağı olan Üzeyirin Ağcabədidə doğulmasının maraqlı tarixçəsi var. Onun bacı və qardaşları hamısı Şuşada doğulublar.

Atası Əbdülhüseyn Molla Məhəmməd oğlu Hacıbəyov dövrünün savadlı, ziyalı şəxslərindən biri olub. O, həm də böyük şairə, Qarabağ xanlarının varisi Xurşidbanu Natəvanın mirzəsi olmuş və onun Ağcabədidəki təsərrüfatına başçılıq etmişdir. Anası Şirinbəyim xanım isə Qarabağın məşhur Əliverdibəyovlar nəslindən idi.

Əbdülhüseyn Hacıbəyov Xan Qızının şəxsi mirzəsi olmaqla yanaşı, həm də onun Ağcabədidə olan təsərrüfatına rəhbərlik edirdi. Buna görə də ilin çox hissəsini orada keçirirdi. Şirinbəyim xanım Üzeyirə hamilə olarkən Ağcabədiyə gedib yoldaşına baş çəkmək, sonra yenidən Şuşaya qayıtmaq qərarına gəlir. Bacılarına baş çəkmək üçün yolunu əvvəlcə Ağdamdan salır. Şirinbəyim xanımı 8 bacının hərəsi bir az öz evində qonaq saxlayır. Ağcabədiyə çatanda isə artıq gec olur, Şuşaya qayıda bilmir. Ona görə də gələcəyin dahisi olacaq bu oğlanı elə Ağcabədidə dünyaya gətirir. Bir aydan sonra isə dəvənin üstündə kəcavə düzəldib, anasını Üzeyirlə birgə Azərbaycan mədəniyyətinin beşiyi adlandırılan Şuşaya gətirirlər.

Üzeyir ilk təhsilini buradakı iki sinifli rus-türk məktəbində alır. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Ü.Hacıbəylinin musiqi tərbiyəsinə müstəsna təsir göstərir. Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı Ağalar bəy Əliverdibəyov olmuşdur. Bu həmin Əliverdibəyov idi ki, sonralar həm də böyük ifaçı Şövkət xanım Ələkbərovanın ilk muğam müəllimi olmuşdur.

## Qori Seminariyasında

Üzeyir Hacıbəyli 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. O dövrün bir sıra mütəfəkkirləri kimi, onun da dünyagörüşünün formalaşmasında bu seminariya böyük rol oynamışdır. Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuş, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Qori Seminariyasında Üzeyir Hacıbəyli həm də gələcəkdə Azərbaycan opera musiqisində öz sözünü deyəcək, gələcək bacanağı Müslüm Maqomayevlə tanış olmuşdur. Seminariya illərindən başlanan dostluq sonralar həm də qohumluğa çevrilir. Üzeyir Hacıbəyli və Müslüm Maqomayev Terequlovlar ailəsinin qızları ilə evlənirlər.

Seminariyanı bitirdikdən sonra Ü.Hacıbəyli bir müddət müəllimlik fəaliyyəti ilə məşğul olur. Böyük bəstəkarın pedaqoji fəaliyyəti 1904-cü ildə Qarabağın Hadrut kəndindən başlayır. Burada o rus dili, hesab, tarix və musiqidən dərs demişdir.

1905-1907-ci illər hadisələrindən sonra Bakıya gələn Hacıbəyli burada da bir sıra məktəblərdə müəllimlik etməklə yanaşı, ədəbi-publisistik fəaliyyətlə də məşğul olur.

1911-ci ildə Üzeyir Hacıbəyli musiqi təhsili almaq üçün Moskvaya getmiş, Moskva Filarmonik Cəmiyyəti nəzdində İlyinskinin xüsusi musiqi kursunda təhsil almışdır. Rusiya musiqi həyatı ilə tanışlıq Üzeyir bəyin dünya və Avropa musiqisinə dərindən yiyələnməsinə köməklik edir. Beləliklə, dövrünün müasir musiqisini Azərbaycan milli musiqisi ilə uğurla sintez etməyi bacaran dahi bəstəkar Azərbaycan və dünya musiqisinin nadir incilərini yaradır.

Ü.Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən “Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Hacıbəyli operanın librettosunu Füzulinin eyni adlı poeması əsasında yazmışdır. İlk tamaşaya istedadlı aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermiş, dirijor isə yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev olmuşdur. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə aşpaz şagirdi Əbdürrəhim Fərəcov çıxış etmişlər. “Leyli və Məcnun” ilə musiqi tarixində operanın yeni növü-muğam operası meydana gəldi.

1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında “Koroğlu” operası ilk dəfə tamaşaya qoyuldu. “Koroğlu” operası Azərbaycanda ilk klassik opera hesab olunur. Bu əsər Üzeyir Hacıbəylinin yaradıcılığının zirvəsini təşkil edir. Elə həmin il Üzeyir Hacıbəyli “Azərbaycan SSR xalq artisti” fəxri adına layiq görülür.

O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir.

## Stalinlə tarixi görüş

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında “Arşın mal alan”, “Koroğlu” operaları böyük maraqla qarşılanır. Hər iki operaya baxan Stalin bəstəkarın yaradıcılığına yüksək qiymət verir. “Koroğlu”nu zamanında yaradılan opera hesab edən Stalin Üzeyir Hacıbəyliyə məsləhət görür ki, “bir yox, iki belə opera yaratmaq lazımdır”.



Stalinin göstərişi ilə Azərbaycandan gələn nümayəndə heyətinin şərəfinə ziyafət təşkil edilir. Deyilənə görə, həmin məclisdə Üzeyir Hacıbəyliyə yuxarı başda-Stalinlə Mircəfər Bağırovun yanında yer göstərilir. Stalin Üzeyir bəylə xeyli söhbət edir və söhbət əsnasında “Arşın mal alan” operasına hələ Gürcüstanda olarkən baxdığını bildirir, “Arşın mal alan”dan parçalar da oxuyur.

## Musiqili komediyalar

Bəstəkarın ilk musiqili komediyası üç pərdədən ibarət “Ər və arvad”dır. Bu əsər Azərbaycanda musiqili komediyanın ilk nümunəsidir. Əsərin ilk tamaşası 1910-cu ildə olmuşdur.

1910-cu ildə Üzeyir Hacıbəyli “Ər və arvad”dan sonra ikinci operettasını - “O olmasın, bu olsun”u yazır. İlk tamaşa 1911-ci il aprelin 25-də Bakıda, Mayılov qardaşlarının teatrında olmuşdur. Sonralar “O olmasın, bu olsun” musiqili komediyası müxtəlif dillərə tərcümə olunaraq Qafqazyanı ölkələrdə, eləcə də Türkiyədə, Bolqarıstanda, Yəməndə və digər ölkələrdə tamaşaya qoyulmuşdur.

Üzeyir Hacıbəylinin üçüncü və sonuncu musiqili komediyası “Arşın mal alan”dır. 1913-cü ildə isə Peterburq Konservatoriyasında təhsil almışdır. Peterburq dövrü Hacıbəylinin yaradıcılığında mühüm rol oynamış, o, “Arşın mal alan” musiqili komediyasını məhz burada yaratmışdır. Üzeyir Hacıbəylinin yazdığı bu operetta 70-ə yaxın xarici dilə tərcümə edilmiş, 100-dən çox teatrın səhnəsində oynanılmışdır. “Arşın mal alan” beş dəfə ekranlaşdırılmışdır.

Deyilənlərə görə, “Arşın mal alan” 1945-ci ildə Bakı kinostudiyasında ekranlaşdırılmış və bu musiqili film də dünyada geniş şöhrət qazanmışdır. Lakin əsərlərinə kimlərinsə düzəliş etmələri ilə heç cür barışmayan dahi Üzeyir bəy “Arşın mal alan” bədii filmindən narazı qalmışdı. Filmə baxış sona yetəndən sonra Üzeyir bəy söz alaraq deyib: “Mənim övladım yoxdur. Əsərlərim mənim övladlarımdır. Heç kimin onlara toxunmağa haqqı yoxdur”.

Dahi sənətkarın həyat və yaradıcılığını nəinki bir məqaləyə, qalın kitablara belə sığışdırmaq çətin olduğundan onun fəaliyyətinin əsas göstəricilərini qısaca qeyd etməklə kifayətlənirik.

Azərbaycanlı bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi. Üzeyir Hacıbəyov Azərbaycanın Əməkdar incəsənət xadimi (1935), SSRİ xalq artisti (1938), Stalin Mükafatı laureatı (1941, iki dəfə), “Lenin Ordeni” və “Qırmızı Əmək Bayrağı” ordeni laureatı, Azərbaycan Elmlər Akademiyasının akademiki (1945), professor (1940), Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1938-1948), Azərbaycan Dövlət Konservatoriyasının rektoru (1928-1929, 1939-1948), Azərbaycan EA İncəsənət İnstitutunun direktoru (1945-1948). Azərbaycan SSR, Azərbaycan Xalq Cümhuriyyəti və indiki müstəqil Azərbaycan Respublikasının himnlərinin müəllifidir.

Böyük sənətkar 22 noyabr 1948-ci ildə Bakıda əbədiyyətə qovuşmuşdur.

## SON

Bəşər mədəniyyətinin nadir incilərinin müəllifi ömrü boyu bir neçə dəfə real ölüm təhlükələrindən xilas olub. Sanki böyük bir Qüdrət sahibi dahi bəstəkarı bəşəriyyətə xidmət üçün qoruyurdu.

I təklükə - 1918-ci ildə ermənilərin Azərbaycanda törətdikləri mart qırğını zamanı erməni daşnakları Üzeyir bəyin evini güllәbaran edirlər. Şərqin ilk operasını yazan bəstəkara qısqanclıqla yanaşan daşnaklar evin divarlarını, damını güllə yağışına tuturlar. Bu qəlpələr yalnız 1975-ci ildə bəstəkarın ev-muzeyinin açılışı ərəfəsində təmizlənir.

II təhlükə - Sovet hakimiyyətinin ilk illərində Üzeyir Hacıbəylinin adı tez-tez xalq düşmənləri sırasında səslənməyə başlayır. 1920-ci ildə bəstəkarı güllələmək istəyirlər. Bu təhlükə sırf təsadüf nəticəsində sovuşur. Üzeyir Hacıbəylinin qayını, əqidəcə qatı kommunist olan Hənəfi Terequlov təhlükəsizlik idarəsi şöbə müdirlərinin birinin masasının üstündə təsadüfən haqqında güllələnmə hökmü çıxarılan 59 nəfərin siyahısında Üzeyir Hacıbəylinin də adını görür. Başıalovlu Nəriman Nərimanovun yanına gedərək vəziyyəti danışır. Nəriman Nərimanov müvafiq orqanlardan həmin siyahını tələb edir. Onları tələm-tələsik qərar çıxarmaqda günahlandıran Nərimanov bu siyahını cırıb atır. Nəriman Nərimanov bəstəkara bir müddət Bakıdan uzaqlaşmağı məsləhət görür.

III təhlükə - 1939-cu ildə Üzeyir Hacıbəyli şəkər xəstəliyinə tutulur. Uzun illər Üzeyir Hacıbəylinin şəxsi katibi işləyən yaxın qohumu Ramazan Xəlilovun dediyinə görə, bəstəkar bu xəstəliyi bədnam qonşularımızın ucbatından tapıb. Belə ki, 1939-cu ildə Moskvada İttifaq miqyasında milli musiqi alətləri ifaçılarının müsabiqəsi keçirilir. Stalinin göstərişi ilə münsiflər heyətinə Üzeyir Hacıbəyli başçılıq edirdi. Müsabiqə zamanı bəstəkar bərk əsəbiləşir, təbiətcə sakit insan olan Üzeyir bəy uzun müddət sakitləşə bilmir: Azərbaycanı təmsil edən ifaçılar arasında ermənilərin olmasına baxmayaraq, Bakı erməniləri Moskvaya məktub yazırlar və bildirirlər ki, Üzeyir Hacıbəyli millətçilik edərək qeyri-millətlərin müsabiqədə iştirakına əngəllər törədir. 30-cu illər üçün bu ittiham ən ağır ittiham idi. Molotov ona ünvanlanan ərizəyə dərkənar qoyaraq, bəstəkara göndərir: “Özünüz həll edin”. Başdan-ayağa böhtan olan bu ərizə bəstəkarın əsəblərinə ciddi təsir göstərir və o, şəkər xəstəliyinə tutulur.

**Taleh Turqut,**
***“İki sahil”***